**AZƏRBAYCAN RESPUBLİKASININ**

**NAZİRLƏR KABİNETİ**

**QƏRAR**

**№ 266**

**Bakı şəhəri, 25 sentyabr 2013-cü il**

# "Emal xüsusi gömrük proseduru üzrə yerinə yetirilən əməliyyatların hasilat normasının və ya orta hasilat normasının müəyyənləşdirilməsi Qaydası"nın təsdiq edilməsi haqqında

"Azərbaycan Respublikası Gömrük Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 15 sentyabr tarixli 499 nömrəli Fərmanının 1.3.9-cu yarımbəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **QƏRARA ALIR:**

"Emal xüsusi gömrük proseduru üzrə yerinə yetirilən əməliyyatların hasilat normasının və ya orta hasilat normasının müəyyənləşdirilməsi Qaydası" təsdiq edilsin (əlavə olunur).

**Azərbaycan Respublikasının Baş naziri** **Artur Rasi-zadə**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 25 sentyabr tarixli 266 nömrəli qərarı ilə **təsdiq edilmişdir**

**Emal xüsusi gömrük proseduru üzrə yerinə yetirilən əməliyyatların hasilat normasının və ya orta hasilat normasının müəyyənləşdirilməsi**

# QAYDASI

## 1. Ümumi müddəalar

1.1. Bu Qayda Azərbaycan Respublikasının Gömrük Məcəlləsinin (bundan sonra - Gömrük Məcəlləsi) 196.1-ci maddəsinə əsasən hazırlanmışdır və emal xüsusi gömrük proseduru üzrə yerinə yetirilən əməliyyatların hasilat normasının və ya orta hasilat normasının (bundan sonra - hasilat norması) müəyyənləşdirilməsi qaydasını müəyyən edir.

1.2. Hasilat norması emal xüsusi gömrük proseduru altında yerləşdirilmiş malların emalı nəticəsində alınan məhsulların müəyyən miqdarı və ya faizidir.

## 2. Hasilat normasının müəyyən edilməsi

2.1. Hasilat norması emal əməliyyatlarının həyata keçirildiyi və ya həyata keçirilməli olduğu faktiki şərait əsasında müəyyənləşdirilir.

2.2. Hasilat norması müəyyən edilərkən, istehsalat tullantılarının və istehsalat itkilərinin miqdarı hesablanmalıdır.

2.3. Malların emal xüsusi gömrük proseduru altında yerləşdirilməsinə icazə verilməsi məqsədi ilə şəxs tərəfindən gömrük orqanlarına ərizə ilə müraciət edildikdə, ərizədə emal xüsusi gömrük proseduru üzrə yerinə yetirilən əməliyyatların hasilat norması barədə aşağıdakı məlumatlar dəqiq göstərilməlidir:

2.3.1. hasilat normasının müəyyən edilməsi metodu;

2.3.2. emal məhsulunun alınması üçün istifadə olunan daxili və xarici malların adı, xarici iqtisadi fəaliyyətin mal nomenklaturası (bundan sonra-XİFMN) üzrə kodu və XİFMN-də göstərilən ölçü vahidində miqdarı;

2.3.3. emal məhsulunun adı, XİFMN üzrə kodu və hasilat norması;

2.3.4. mövcud olduqda istehsalat tullantılarının adı, XİFMN üzrə kodu, XİFMN-də göstərilən ölçü vahidində miqdarı;

2.3.5. istehsalat itkilərinin mütləq kəmiyyətdə və ya faizdə miqdarı.

2.4. Emal xüsusi gömrük proseduru altında yerləşdirilən mallarla bağlı bir neçə emal əməliyyatlarının həyata keçirilməsi nəzərdə tutulduqda, müraciətdə bu Qaydanın 2.3-cü bəndinə uyğun olaraq hər bir emal əməliyyatı barədə ayrıca məlumat verilməlidir.

2.5. Müraciət zamanı hasilat normasını müəyyən etmək mümkün deyildirsə və ya müəyyən edilmiş hasilat normasının dəyişilmək ehtimalı olarsa, müraciətdə bu barədə müvafiq məlumat göstərilməlidir.

2.6. Malların emal xüsusi gömrük proseduru altında yerləşdirilməsinə icazə verildikdən sonra müraciətdə göstərilmiş hasilat norması barədə hər hansı bir dəyişikliklə bağlı şəxs tərəfindən gömrük orqanlarına dərhal məlumat verilməlidir.

## 3. Yekun müddəa

3.1. Gömrük nəzarətini həyata keçirmək məqsədi ilə malların gömrük orqanlarının ekspertizaya göndərilməsi haqqında sənədi (göndərişi) əsasında Gömrük Məcəlləsinin 322.1.3-cü maddəsinə uyğun olaraq emal prosesində hasilat normaları müəyyən edilir.